https://doi.org/10.30546/114578.2025.7.212

# XARİCİ DİL DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞININ ARTIRILMASINDA İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN İSTİFADƏ İMKANLARI

**Günay Alıyeva**
*baş müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*http://ORCİD.org/0000-0001-5780-039X*
*aliyevagunay79@yahoo.com*

**Xülasə**

Bu gün ümumtəhsil məktəblərində şagirdlərin idrak fəallığının artırılması məqsədilə informasiya-kommunikasiya texnologiyalarından geniş şəkildə istifadə olunur. Bu, şagirdlərə müstəqil şəkildə yeni biliklər əldə etmək, yaradıcı düşünmək, diskussiyaya qoşula bilmək və müzakirələrdə mövqeyini əsaslandırmaq, həmçinin zəruri şəxsi keyfiyyətlərin formalaşdırılmasına imkan yaradır. Digər tərəfdən, idrak fəallığının artırılması təhsildə bir çox problemlərin də həllinə kömək edir. Cəmiyyətin daha çox yaradıcı şəxsiyyətə ehtiyacı olduğunu və bu prosesin məktəbdə yetişdiyini, yaradıcı şəxsiyyət dedikdə isə qloballaşan dünyada sözünü deyə bilən, dil bacarıqlarına malik, informasiya texnologiyalarından istifadə edə bilən şəxsiyyət nəzərdə tutulması xarici dil (ingilis) dərslərinin tədrisinə günün tələbləri baxımından yanaşmağı bir vəzifə olaraq qarşıya qoyur.

**Açar sözlər:** xarici dil (ingilis), texnologiya, idrak fəallığı, təlim prosesi, situasiya.

# OPPORTUNITIES OF USING INFORMATION AND COMMUNICATION TECHNOLOGIES TO ENHANCE STUDENTS' COGNITIVE ACTIVITIES IN FOREIGN LANGUAGE CLASSES

**Gunay Alıyeva**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Today, information and communication technologies (ICT) are widely used in general education schools to enhance students' cognitive activity. This enables

students to independently acquire new knowledge, think creatively, participate in discussions, justify their opinions during debates, and develop essential personal qualities. On the other hand, increasing cognitive activity also helps solve many problems in education. Considering that society increasingly needs creative individuals, and such individuals are nurtured at school, it becomes necessary to approach the teaching of foreign languages (especially English) in accordance with modern demands. A creative individual is understood as someone who can express themselves in a globalized world, has language skills, and can use information technologies effectively.

**Key words:** foreign language (English), technology, cognitive activity, teaching process, situation.

## ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПОВЫШЕНИИ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ ОБУЧАЮЩИХСЯ НА УРОКАХ ИНОСТРАННОГО ЯЗЫКА

**Гюнай Алыева**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Сегодня информационно-коммуникационные технологии широко используются в общеобразовательных школах с целью повышения познавательной активности учащихся. Это дает ученикам возможность самостоятельно приобретать новые знания, творчески мыслить, уметь включаться в дискуссию и обосновывать свою позицию в дискуссии, а также формировать необходимые личностные качества. С другой стороны, повышение познавательной активности помогает решить многие проблемы в обучении. Тот факт, что обществу требуется больше творческой личности и что этот процесс культивируется в школе, а творческая личность означает человека, который умеет говорить, владеет языком, может использовать информационные технологии в глобализированном мире, означает подходить к преподаванию на занятиях иностранного языка (английского) с точки зрения вызовов современности.

**Ключевые слова:** иностранный язык (английский), технология, познавательная деятельность, процесс обучения.

**Giriş/Introduction**

Qloballaşan dünyanın bütün sahələrində olduğu kimi, təhsil sahəsində də köklü dəyişikliklər özünü göstərməkdədir. Öyrənmə artıq daha geniş məzmun kəsb edərək bilik, bacarıq və kompetensiyalara yiyələnməklə səciyyələnir. Nəzəri biliklərin praktik vərdişlərə çevrilməsi öyrənənlərdən analitik düşüncə, tənqidi təfəkkür, idrak fəallığı tələb edir ki, bu da təlimin məzmun və formalarında, standartlarda əksini tapmışdır.

İdrak fəallığı bilavasitə ətraf aləmin dərki ilə bağlıdır. Uşaq anadan olandan onu əhatə edən insanlara, mühitə, cəmiyyətə (bu ilk olaraq ailə olur) münasibətini müxtəlif formalarda bildirir. Pedaqoji fikirdə idrak fəallığının məktəbəqədər yaş dövründə mühüm xüsusiyyət olduğu göstərilir; məhz idrak fəallığı uşağın ətraf mühiti əhatəli şəkildə dərk etməsinə imkan yaradır. Uşaqda diqqət, duyğu, qavrayış, hafizə, təfəkkür, təxəyyülün inkişafı sonradan təlim prosesində müsbət nəticələr göstərməsinə, uğur qazanmasına imkan yaradır. Bu mənada uşaqlarda idrak proseslərini fəallaşdırmaq, stimullaşdırmaq, istiqamətləndirmək bacarığı ilk olaraq, ailədə valideynlərin, daha sonra isə məktəbəqədər müəssisələrdə və məktəbdə müəllimin pedaqoji fəaliyyətinin əsas məqsədi hesab edilir. “Obyektiv aləmin, onun cisim və hadisələrinin insan beynində inikasından ibarət olan idrak prosesi − dərketmə çox mürəkkəb, dialektik bir prosesdir. İdrakın bir-birini tamamlayan pillələri, onun canlı seyretmədən mücərrəd təfəkkürə doğru inkişafı həmin fəallığın mexanizmini, əsasını təşkil edir. Fəallığın yüksəldilməsində ciddi əhəmiyyət kəsb edən ümumiləşdirmə və müqayisə prosesi təfəkkürün inkişafına, fəallaşdırılmasına müsbət təsir göstərir” [Əlizadə, 2006:11].

**Xarici dil dərslərində təlim nəticələrinin reallaşdırılmasında idrak fəallığının rolu.** Pedaqoji ədəbiyyatda idrak fəallığının formalaşdırlması, onun birbaşa təlim prosesi ilə bağlılığı haqqında fikirlər geniş yayılmışdır. Azərbaycan pedqoqlarından M.Mehdizadə, Ə.Ağayev, A.Abbasov, H.Əlizadə, Ə.Abbasov, İ.Cəbrayılov təlimdə idrak marağı oyatmaq üçün müxtəlif təlim tiplərindən danmışmış, idrak marağının mahiyyəti və məzmununu açıqlamış, məhz idrakın biliyə maraq oyadıb tərbiyə etdiyini,biliyə tələbat oyatdığını vurğulamışlar.

Xarici dil fənninin tədrisinin məzmunu 2010-cu ildə “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramlarında (Kurikulumları)” əksini tapmışdır. 2011-ci ildən artıq V-XI siniflər üzrə təhsil proqramları təsdiq edilir və istifadəyə verilir. İbtidai, ümumi orta təhsil və tam orta təhsil səviyyələri üzrə şagirdlərin inkişaf səviyyələri nəzərə alınmış proqramda (kurikulumda) hər bir fənnin məzmunu, texnologiyalar, qiymətləndirmə mexanizmləri təlim nəticələrində əhatə olunur.

Aparıcı fənlərdən olan xarici dil fənninin təlim nəticələri ümumi orta təhsil səviyyəsi üzrə şagirdlərin yiyələnməli olduqları bacarıq və səriştələrin formalaşdırılmasını nəzərdə tutur:

− dilin qrup formasında öyrənilməsi prosesində ünsiyyət etiketi qaydalarına əməl edir, yoldaşlarının nitqinə münasibət bildirir;

− lüğət nümunələri hazırlayır, dilöyrənmə prosesində lüğətlərdən, yardımçı vəsaitlərdən, texnoloji vasitələrdən məqsədyönlü istifadə edir;

− ilk dəfə təqdim edilmiş və tərkibində 5-10 faizə qədər naməlum söz olan mətni lüğət vasitəsilə oxuyur, məzmununu izah edir;

− sadə və mürəkkəb cümlə anlayışlarından istifadə edir;

− oxunmuş mətnin planını tərtib edir, məzmununu yazılı tezislə ifadə edir, müstəqil surətdə sadə süjetli mətnlər qurur və s. [ÜTFS, 2012:54-55].

Fənnin təlim nəticələri məzmun xətləri – dinləyib-anlama, danışma, oxu və yazıda altstandartlarla reallaşır. Şagirdlər dinləyib-anlama üzrə dinlədikləri mətnin məzmununu anladıqlarını nümayiş etdirir, danışma məzmun xəttində kiçikhəcmli dialoqlar qurmaq, öyrəndikləri yeni sözlərdən düzgün istifadə etməklə şifahi nitq bacarıqlarını nümayiş etdirir, mətnin bütöv hissələrini fərqləndirmək, məzmuna uyğun sualları cavablandırmaqla oxuduğu mətnin məzmununu mənimsəyir, yazı məzmun xəttinə görə sözləri məna və qrammatik cəhətdən əlaqələndirməklə cümlələr qurur, sərbəst şəkildə gördükləri əşya və varlıqların adlarını yazmağı bacarır. Sinifdən-sinfə adladıqca alt standartlaırn məzmunu dəyişir; V sinifdə şagird müraciət zamanı sadə sualları cavablandırırsa, VI sinifdə artıq bütün suallara cavab verir, VII sinifdə müraciətlərə uyğun tapşırıqlar yerinə yetirir, VIII sinifdə tapşırıqları ardıcıl icra edir, mətni məzmununa görə hissələrə ayırır, IX sinifdə artıq mətnin məzmununu interpretasiya edir, X sinifdə mətndəki fakt və hadisələri qruplaşdıraraq ümumiləşdirmələr aparır, XI sinifdə idrak fəallığının artıq inkişaf etdiyi səviyyədə mətnin məzmununa uyğun təqdimatlar edir, məzmunu qiymətləndirə bilir.

**İnformasiya-kommunikasiya texnologiyalarından istifadə imkanları.** "Təlim texnologiyasını təhsilin məzmunu kontekstində belə başa düşmək olar ki, təlim texnologiyaları əsasən təlim vərdişlərinə daxil olmaqla öyrənilən fənlərə aid geniş məlumatları əldə etməyə imkan verir, yüksək səviyyəli təfəkkürü, əməkdaşlığı və problemlərin həllini təmin edir. Təlim texnologiyası təhsilin hər pilləsi üzrə onun məqsədinin keyfiyyətli yerinə yetirilməsini təmin etmək üçün istifadə edilən sistemdir" [Cəbrayılov, 2019:21]. Xarici dil dərslərində texnologiyalardan istifadə dil öyrənmənin effektivliyini artırmaq, müxtəlif

resurslardan istifadə etməklə yanaşı, öyrənmə bacarıqlarını inkişaf etdirir. İKT − multimedia (videolar, animasiyalar) vasitələri diqqətin mövzu üzərində cəmlənməsinə, şagirdlərin mövzunu dərinliyinə qədər anlamasına şərait yaradır. Şagirdlər mətndəki məlumatı yaxud yeni öyrəndikləri sözləri vizual olaraq qəbul edirlər ki, bu da idrak fəallığının artırılmasına səbəb olur.

İnformasiya-kommunikasiya texnologiyalarının quruluşuna müəllim-şagird münasibətlərində əks-əlaqə, nəticəyönümlü təlim prosesinin layihələşdirilməsi, şagirdlərin birgə və məhsuldar əməkdaşlığının təşkili və qiymətləndirmə daxildir. Təlimdə qarşılıqlı əməkdaşlıq, fənlərin məzmun komponentlərinin əlaqələndirilməsi, inkişafetdiricilik, şəxsiyyətyonümlülük kimi məqsədləri reallaşdırmaq üçün seçilən üsullar və tərzlər müəllimin peşəkarlığının səviyyəsini göstərir. Müvafiq texnologiyalar əyaniliyin tətbiqinə, mövzunun həyatla əlaqələndirilməsinə, mövzuya maraq oyatmaq, şagirdlərdə müstəqil düşünmə və işləmə bacarıqlarını formalaşdırmaq, yaradıcı təfəkkürü inkişaf etdirmək, analiz, sintez, əqli nəticə, induksiya, deduksiya metodlarından istifadə yolu ilə nəticə çıxarmaq qabiliyyətini formalaşdırmağa xidmət edir ki, bunlar da informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sayəsində həllini tapır.

Şagirdlərin intellektual inkişafı, özünütəsdiq və özünüifadəsi üçün elmi-pedaqoji ədəbiyyatda pozitiv hesab edilən dərs situasiyaları haqqında geniş məlumat verilir. Bu situasiyalar Azərbaycan təhsil sistemi ilə yanaşı, Avropa, rus təhsil sistemlərində məqbul hesab edilən situasiyalardır:

1. Dərsin “optimist başlanğıc” situasiyası;
2. Problem situasiya;
3. Seçim situasiyası;
4. Müvəffəqiyyət situasiyası;
5. İntellektual gərginlik situasiyası.

Qeyd olunan situasiyalar şagirlərin idrak fəaliyyətini aktivləşdirir, müstəqillik hissini formalaşdırır, möhkəmləndirir, şəxsiyyətini inkişaf etdirir, özünə inam yaradır. Xarici (ingilis) dil dərsliklərində müxtəlif ölkələrin tarixi, ədəbiyyatı, incəsənəti barədə verilən məlumatlar, şagirdlərdə təzadlı fikirlər formalaşdıran situasiyalar onlara müxtəlif, bəzən real olmayan fikirlər irəli sürməyə, bu ideyaları müzakirə edib yaxşılarını seçməyə, sağlam rəqabət aparmağa, qarşılıqlı əməkdaşlığa şərait yaradır. İdraki fəallıq şagirdlərdə arqumentləşdirmə qabiliyyəti, hadisələrə münasibət bildirmə, öz yanaşma tərzini və onun dərk olunmasını diktə ilə yanaşı, lüğət tərkibinin zənginləşməsinə, kommunikativ səriştələrin inkişafına təkan verir.

Xarici (ingilis) dil dərslərində idrak fəallığının formalaşdırılmasına

dərsdənkənar məşğələlərdə də nail olmaq mümkündür; ingilis dilində səhnəciklərin hazırlanması, müsabiqələr, idraki oyunlar (breyn-rinq tipli), sənədli filmlərin, cizgi filmlərinin izlənilməsi və müzakirəsi zamanı şagirdlər kommunikativ bacarıqlarını idraki yaradıcılıqda təkmilləşdirmiş olurlar.

Müair dövrdə hər bir şagird mürəkkəb və təzadlı bir cəmiyyətin üzvüdür; ailə münaqişələrinin sayca və məzmunca dərinləşdiyi, sosial şəbəkələrin həyatın ayrılmaz bir hissəsi olduğu, texnologiyaların çox zaman müsbət deyil, mənfi paradoks yaratdığı mühit, təbii ki, şagirdlərin psixologiyasına, davranışına təsirsiz ötüşmür. Şagirdlər hər bir fənnin məzmununu özlərinin gələcək həyatında rolu baxımından qiymətləndirir, peşə karyerasının qazanacağı uğurları qazandığı bilik, bacarıq və səriştələrlə ölçür. Xüsusilə yuxarı sinif şagirdlərində idrak fəallığının yüksədilməsi həmçinin dil bacarıqları ilə əlaqələndiyindən təlim texnologiyalarında qeyd olunanların nəzərə alınması vacibdir.

**Nəticə/Conclusion**

"Bu gün Azərbaycan təhsilinin demokratikləşməsi və humanistləşdirilməsi üçün müəyyən işlər görülür ki, bu da zamanın tələbidir. Təhsilin demokratikləşməsi və humanistləşdirilməsi başlıca olaraq aşağıdakı istiqamətlərdə öz həllini tapır: təhsilin idarə edilməsində − təhsilin təlim-tərbiyə prosesinin təşkili və həyata keçirilməsinə nəzarət və rəhbərlikdə, təlim prosesinin təşkili və həyata keçirilməsində (tədris planlarında, proqram və dərsliklərdə), müəllim-şagird (tələbə) münasibətlərində, müəllimin ünsiyyəti və davranışında, taktlarında, hökmlərində, meyil və maraqların, qabiliyyətlərin nəzərə alınması və düzgün qiymətləndirilməsində, təlim prinsip və metodlarının məqsədyönlü və məqsədəmüvafiq seçilməsində, ayrı-ayrı fənlərin imkanlarından səmərəli istifadə edilməsində və s." [Cəbrayılov, 2019:11]. Xarici dil dərslərində şagirdlərin idrak fəallığının artırılmasında informasiya-kommunikasiya texnologiyalarından istifadə ilk növbədə şagirdlərin subyektə çevrilməsini təmin edir. Orta ümumtəhsil məktəblərinin xarici dil proqramı və dərsliklərində şagirdlərin idrak fəallığının artırılması məqsədilə informasiya-kommunikasiya texnologiyalarından istifadə bu gün kurikulumun özündən doğan bir tələb kimi diqqət mərkəzindədir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Abbasov, Ə.M. Müasir dərs fenomeni: [Elektron resurs] URL: https://www.academia.edu/36842315/M%C3%9CAS%C4%B0R_D%C6%8FRS_FENOMENI_Phenomenon_modern_lesson_

2. Ağayev, Ə.Ə. (2006). Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri / – Bakı: Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. – №1, – s.28-45.

3. Ağayev, Ə.Ə. (2013). Pedaqoji innovasiyalar probleminə müasir yanaşmalar // – Bakı: Azərbaycan məktəbi. – № 6, – s.25-32.

4. Alışov, M. (2001). Kompüter texnikasının köməyilə şagirdlərdə idrak fəaliyyətinin fəallaşdırılması /pedaqog. üzrə fəlsəfə doktoru dis. – Bakı, – 175 s.

5. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün İngilis dili fənni üzrə təhsil proqrami (kurikulumu): [Elektron resurs] / URL: https://-www.arti.edu.az/noduploads/book/ingilis-dili-ikinci-xarici-dil.pdf

6. Cəbrayılov, İ. (2019). Təhsilin təşkilinə müasir pedaqoji yanaşmalar / İ.Cəbrayılov. – Bakı: Mütərcim. – 274 s.

7. Əlizadə, Ə. (2006). İdrak prosesləri və hisslər / Ə.Əlizadə. – Bakı: ADPU. – 345 s.

8. İsmixanov, M. (1983). Dərsdə şagirdlərin idrak fəaliyyətinin və yaradıcı müstəqilliyinin artırılması yolları //– Bakı: Azərbaycan məktəbi. – №7. – s.21-27.

9. Mirzəyeva, Ş. (2016). Şagirdlərin idrak fəallığını pozitiv istiqamətə yönləndirən dərs situasiyalarından istifadə // – Bakı: Azərbaycan dili və ədəbiyyatı tədrisi. –№1. – s.24-31.

10. Ümumi təhsilin fənn standartları (I-XI siniflər) (2012). – Bakı: Mütərcim. – 402 s.

11. Vəliyeva, Z. (2002). İnteraktiv təlim və şəxsiyyətin formalaşmasında onun rolu // – Bakı: Azərbaycan məktəbi. – №3. – s.50-55.

12. Щукина, Г.И. (1982). Активизация познавательной деятельности учащихся в учебном процессе /Г.Щукина. – Москва: Просвещение.– 160 с.

**Məqalə tarixçəsi**
*Daxil olub* *28.03.2025*
*Qəbul edilib* *10.04.2025*
*Nəşrə tövsiyə edib* *Nazilə Abdullazadə*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*